KREDO

№32 (1112) 10 avqust 2022-ci il

# MƏDƏNİYYƏT NAZİRİMİZ HÖRMƏTLİ ANAR KƏRİMOVUN QƏBULUNDAN VƏ ONUNLA GÖRÜŞÜMDƏN TƏƏSSÜRATLARIM

**Bu yaxınlarda Qəbələ Mədəniyyət Mərkəzində Mədəniyyət nazirimiz, çox hörmətli Anar Kərimovun şimal-qərb bölgələri üzrə vətəndaşların qəbulu keçirilirdi. Qəbul saat 10-da başlayırdı. Əvvəlcədən qəbulla bağlı qeydiyyatdan keçdiyim üçün Qəbələyə yollanaraq cənab nazirimizlə görüşmə şansını əldə etdim.**



Nazir qəbul etdiyi hər bir vətəndaşın müraciətinə xüsusi diqqət və qayğı ilə yanaşdığından və qəbul etdiyi vətəndaşı sona kimi dinlədiyindən mənim qəbul növbəm nahar fasiləsinə qədər çəkdi. Həyəcanlandım ki, nazirimiz qəbulu təxirə salıb nahar fasiləsinə çıxar və yəqin ki, yol gəldiyindən, çoxlu vətəndaş qəbul etdiyindən yorğun olduğu üçün nahardan sonra qəbul keçirməz. Mənimlə bərabər məndən əvvəl qəbul növbəsində olanlardan da bu kimi narahatlıq keçirənlər, hətta qəbul olunacağına ümidini itirdiyindən çıxıb getməyə hazırlaşanlar da var idi. Elə bu vaxt nazirliyin aparat işçilərindən biri gözləmə otağına daxil olub elə bil bizim qəlbimizdən keçənləri duyurmuş kimi dedi: “Xanımlar və cənablar! Heç bir narahatlığa əsas yoxdur. Cənab nazirimiz nahara çıxmayaraq qəbula yazılmış hər bir vətəndaşı fasiləsiz olaraq son nəfərinə kimi növbə ilə qəbul edəcəkdir, tam rahat ola bilərsiniz”. Qəbulda gözləyənlərin gözlərində yenidən ümid qığılcımları parladı və təbii ki, mən də çox sevindim.

Nəhayət, mənim qəbul növbəm gəlib çatdı. Həyəcanlanmışdım, lakin bu həyəcanım qəbul otağına daxil olana kimi davam etdi. Otağa daxil olub ilk anda nazirimizin olduqca səmimi, qaynar, doğma münasibətini gördükdən sonra elə bildim ki, ailə üzvlərimizdən, doğmalarımdan birinin qəbuluna gəlmişdim. Ona görə də otağa daxil olana kimi yaranmış həyəcan elə həmin anda da yox olub getdi.Otaqda nazirimizlə səmimi salamlaşdıqdan sonra qəbula gələnlər üçün ayrılmış masa arxasında əyləşdik. Bundan sonra əvvəlcə atam cənab nazirin qəbuluna yazılmağımızın səbəbi, sonra isə (Həmin vaxt mənim 14 yaşımın tamam olmağına hələ 5 gün qaldığından mən azyaşlı hesab olunurdum və atam qəbulda mənim qanuni nümayəndəm kimi iştirak edirdi) mənim tərcümeyi-halımla bağlı qısa məlumat verdi. Nazirimiz deyilənləri diqqətlə dinləyib bəzən təəccübləndiyini hiss etdirir, arada müəyyən məqamlarla bağlı mənə də suallar verirdi. Hörmətli nazirimiz bizəxüsusi diqqət və hörmət göstərdiyi üçün özümü bir daha xoşbəxt hiss edirdim. Atam müəyyən məqamlar barədə məlumat verdikdən sonra Anar müəllim mənə müraciət edərək gələcək yaradıcılıq, təhsil planlarım, arzu və istəklərim barədə fikirlərimi bilmək istədiyini bildirdi. Mən nazirimizə möhtəşəm zəfərimizə, işğaldan azad edilmiş torpaqlarımıza, müqəddəs şəhidlərimizə həsr etdiyim “Möhtəşəm Zəfərin nişanəsi” kitabım haqqında məlumat verdim.Eyni zamanda həmin kitabımın davamı olacaq, “Möhtəşəm Zəfərin nişanəsi-2” adlanacaq kitabım üzərində işlədiyimi, artıq materialları kitab çapı üçün hazırladığımı söylədim.Həmçinin kütləvi-ictimai tədbirlərdə vətənpərvərlik mövzusunda fəaliyyətimi müntəzəm davam etdirəcəyimi, orta məktəbdə əlaçılığımı qoruyub saxlayacağımı, seçəcəyim ali təhsil ocağına yüksək balla qəbul olmaq üçün çalışacağımı vəyaşıdlarım arasında vətənpərvərlik, vətəni sevmək hisslərini daha da çox aşılamaq yolunda yorulmadan çalışacağımı dedim.nazirimiz mənim bu cavabımdan çox məmnun qaldı.

Onu da nazirimizin diqqətinə çatdırdım ki, məcburi köçkün ailəsinin üzvü olaraq çap olunmuş 5 kitabımın da əsas mövzusunu təşkil edən vətənimizin dilbər guşəsi olan, şəhidlərimizin müqəddəs qanı ilə daha da müqəddəsləşmiş, bizim üçün qibləgaha çevrilmiş Qarabağımıza qayıdışhəmişə məni maraqlandırıb və həmişə istəmişəm ki, dədə-baba yurdumuz olan Qarabağı görüm, o torpaqlara ayaq basım. Doğma Şuşamızda keçiriləcək ictimai-kütləvi, elmi-bədii tədbirlərdə iştirak etmək, Molla Pənah Vaqifin Heydər Əliyev Fondu tərəfindən yenidən bərpa edilərək gözəlləşmiş, xüsusi zövq oxşayan məqbərəsi önündə ona həsr etdiyim, “Möhtəşəm Zəfərin nişanəsi” adlı kitabda yer almış “Yaşa, Vaqif!-“adlı poemamdan parçalar səsləndirmək istərdim. Bu istəyimlə əlaqədar olaraq nazirimiz qəbulda olan nazirlik əməkdaşlarına xüsusi tapşırıq verdi.

***Sevindik NƏSİBOĞLU***
***2022***